# SUMQAYIT – İNKİŞAFDA OLAN ŞƏHƏR

**Azərbaycan ölkə həyatında mühüm siyasi hadisə olan Prezident seçkiləri ərəfəsindədir. Müasir dünyamız isə milli, dini zəmində müharibə, toqquşma və qarşıdurmalarla qarşı-qarşıyadır. Belə bir vəziyyətdə ölkəmizə rəhbərlik əmin əllərdə olmalıdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə hakimiyyət uğrunda mübarizə, başıpozuqluq, xaos meydanına çevrildi. Ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra ölkəmiz inkişaf, sabitlik adasına çevrildi. Hazırda ümummilli liderimizin strateji inkişaf kursunu dövlət başçısı ümummilli liderin layiqli siyasi varisi İlham Əliyev çox böyük uğurla reallaşdırır. Azərbaycan bu gün yerləşdiyi regionun ən güclü dövləti, söz sahibi olan ölkəsidir. Dövlətimizin hər bir guşəsində hərtərəfli, yüksək templi dinamik inkişaf vardır. Sumqayıtın inkişafı ölkə başçısının xüsusi diqqət mərkəzindədir. Şəhərin bir neçə ziyalısının buradakı davamlı tərəqqi, mənəvi dəyərlər və siyasi kursu dəstəkləməsi barədə müsahibələrini oxuculara təqdim edirik:**

**Eyruz MƏMMƏDOV (əməkdar jurnalist):**



- Mən Bakıda anadan olsam da, 5 yaşından Sumqayıt şəhərində yaşayıram. Sumqayıt mənim üçün əziz və doğma şəhərdir. Mən bir çox xarici ölkələrdə olmuş, gözəl, yaraşıqlı şəhərlərlə tanış olmuşam. Amma Sumqayıtı heç bir şəhərlə əvəz edə bilmərəm. Xaricdə, harada olsam da, həmişə öz doğma şəhərim üçün darıxmışam. Və bu şəhər mənim gözlərimin önündə böyüdüyündən, inkişaf etdiyindən Sumqayıtın multikultural bir şəhər olduğunu, müxtəlif millətlərin çiyin-çiyinə verib, daşı-daş üstə qoyub, bu şəhəri məhəllə-məhəllə, mikrorayon-mikrorayon ucaltdıqlarını öz gözlərimlə görmüşəm və onların əməyinə həmişə heyran olmuşam. Bu ümumbəşəri xarakterinə görə idi ki, ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir". Mən hələ uşaqlıqdan belə bir qənaətə gəlirdim ki, əgər mən gələcəkdə jurnalist, yaxud yazıçı olsam, bu zəhmətkeş insanların əməyini qəzet səhifələrində işıqlandıraram, televiziya, efir vasitəsilə tamaşaçılara, dinləyicilərə çatdıraram...

Mən hələ "Sosialist Sumqayıtı" (indiki "Sumqayıt") qəzetində işləyəndə dəfələrlə Heydər Əliyevin Sumqayıta gəlişinin şahidi olmuşam. Hər gəlişi isə Sumqayıtda böyük tarixi bir hadisəyə çevrilirdi, yaxın gələcəkdə nəyinsə tikiləcəyinə, hansı müəssisəninsə açılacağına ümid bəsləyirdik. Məsələn, ilk gəlişində o bildirdi ki, Sumqayıtda yaşayan qadınların əksəriyyəti işsizdi. Onun təşəbbüsü ilə Sumqayıtda böyük bir üst trikotaj fabriki, onun yanında isə böyük iplik fabriki yarandı. Həmin müəssisələrdə 5 minə yaxın sumqayıtlı qadın işlə təmin olundu.

Mən son 10-15 ildə Sumqayıtda olan hadisələrdən, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən danışmaq istəyirəm. Bizim möhtərəm Prezidentimiz, cənab İlham Əliyev ulu öndərin bu diqqət və qayğısını davam etdirir, dövlət başçısı Sumqayıta dəfələrlə gəlib, Sumqayıtda böyük iqtisadi islahatlar aparıb. Mən ölkə başçısının bu şəhərə diqqət və qayğısını həmişə hiss edirəm.

Böyük bir parkın yanında 5 kilometrə yaxın bulvar yaradılıb və cənab Prezident onu möcüzə adlandırıb. Mən bir jurnalist kimi yay fəslində tez-tez həmin bulvarda oluram və xarici qonaqlardan müsahibələr alıram. Təmasda olduğum Avstraliyadan, Almaniyadan, Ukraynadan, Kanadadan, İsveçdən və digər ölkələrdən gələn qonaqlar bulvarın gözəlliyinə heyranlıqlarını gizlədə bilmirdilər.

Bizim məhəllədə yaşayan bir dostum 25 il bundan qabaq ABŞ-a köçüb. Təxminən 1 il əvvəl yay fəslində Sumqayıta gələndə şəhərin girəcəyində taksi sürücüsünə deyib ki, deyəsən biz ünvanı səhv salmışıq...

Səbəb də bu idi ki, Sumqayıtın girəcəyi də gözəl abadlaşdırılıb. Şəhərdə yollar genişləndirilib, kənarlara elektrik işıqları çəkilib, göydələnlər göz oxşayır və Sumqayıta girəndə elə bilirsən ki, hansısa böyük bir ölkənin qapısını açıb girirsən. Bir türkiyəli iş adamı qayıdıb gedəndə demişdi ki, mən Sumqayıtın gecəsinə vuruldum. Son zamanlar tikilmiş Heydər Əliyev Mərkəzi, ulu öndərin heykəli, gözəl memarlıq nümunəsi Şahmat Məktəbi, İncəsənət Məktəbi, Yeni Azərbaycan Partiyasının binası, bulvarda Azərbaycan Bayrağı Muzeyi yaradılması - bütün bunlar cənab İlham Əliyevin göstərişlərinin şəhər rəhbərliyi tərəfindən layiqincə yerinə yetirilməsi sayəsində olmuşdur. Ölkə rəhbəri Sumqayıtın gözəl bir şəhər olması barədə deyib. "Sumqayıtı memarlıq baxımından gözəl şəhərə çevirmək üçün artıq konkret proqramlar icra edilir. Mən bu məsələləri nəzarət altında saxlayıram və Sumqayıtı gözəlləşdirmək üçün konkret planlarımız vardır. Parklar abadlaşır. Biz yeni dənizkənarı bulvarın tikintisinin başlanmasına qərar vermişik. Mən keçən dəfə də burada olarkən demişəm, Sumqayıtda memarlıq sahəsində tikintidə Bakı standartları tətbiq edilməlidir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Sumqayıt da geri qalmamalıdır, əvvəlki dövrdə tikilmiş binalar bərpa edilməlidir, gözəlləşdirilməlidir, yeni tikilən binalar gözəl memarlıq üslubunda yaradılmalıdır".

Biz Sumqayıt ziyalıları bu mütərəqqi kursa görə cənab İlham Əliyevin ətrafında sıx birləşir və onu dəstəkləyirik.

**Hümbət QULİYEV (sahibkar):**



- Sumqayıt həmişə Azərbaycan üçün önəmli olub. Sovet dönəmində bu şəhər SSRİ-nin böyük bir sənaye potensialı mərkəzi idi. Burada kimya müəssisələri, böyük metallurgiya, toxuculuq müəssisələri və s. vardı. Sumqayıt, ümumiyyətlə, sənaye ehtiyacından yaradılmış bir şəhər idi. Sovetlər İttifaqı dağılandan, müstəqillik qazanandan sonra isə Sumqayıt çətin vəziyyətə düşdü, çünki o zamankı bazar itirilmişdi, müəssisələr əvvəlki gücü ilə işləyə bilmirdi. Yaranan ən böyük problem isə işsizlik idi. Təbii ki, ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra ilk səfərlərindən biri Sumqayıta oldu və qarşıya vacib bir məsələ qoyuldu ki, Sumqayıtın gələcək inkişafı müəyyənləşsin. Sumqayıt, sənaye potensialı olan böyük bir şəhər idi. Ən vacibi isə burada istehsal vərdişləri olan insanlar, mütəxəssis kadrlar vardı. Birinci prioritet bazar iqtisadiyyatına uyğun istehsal sahələri yaratmaq, həmin insanların ixtisasa müvafiq iş yeri ilə təmin edilməsi idi. Bu, ulu öndər tərəfindən Sumqayıtın qarşısında qoyulan ən mühüm vəzifə idi ki, möhtərəm Prezident İlham Əliyev hakimiyyətə gələndən sonra daha sürətlə həyata keçirilməyə başlandı. Sumqayıtın sənaye potensialını gücləndirmək üçün Kimya Parkı, Sənaye Parkı yaradıldı. Burada mexanizm belədir ki, dövlət özü investor kimi çıxış edir, modul tipli sənaye müəssisələri yaradır və sahibkar hazır infrastrukturda öz ideyasını həyata keçirir. Bu mütərəqqi metod həm yerli, həm də xarici iş adamlarını cəlb edir, inkişaf və beləliklə, yeni iş yerlərinin yaradılması sürətlənir.

Son 2 ildə görülən işlər isə keyfiyyətcə yeni mərhələdir.

Hazırda böyük infrastruktur layihələr həyata keçirilir. Sumqayıt qarşısında çətin vəzifə qoyulub, şəhər həm sənaye mərkəzi, həm də turizm şəhəri olmalıdır. Qafqazın ən böyük parklarından olan bizim Nəsimi parkı, möhtəşəm bulvar, tikilən mehmanxanalar və s. Sumqayıtın turizm potensialını daim artırır.

Görülən bütün işlər Sumqayıtda iqtisadiyyatın və biznes mühitinin dinamik inkişafına şərait yaradır və biz sahibkarlar möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi kursunu dəstəkləyir, möhtəşəm layihələrin həyata keçirilməsinə öz töhfəmizi verməyə çalışırıq.

**İbrahim İLYASLI (şair, Əli Kərim adına Sumqayıt Poeziya Evinin direktoru):**



- Çağdaş Azərbaycanı ulu öndər Heydər Əliyevin şah əsəri adlandırırlar. Onun yolunu isə bu gün cənab Prezidentimiz İlham Əliyev uğurla davam etdirir.

Sumqayıt, Azərbaycanın ən böyük şəhərlərindən biridir. Zaman-zaman ulu öndərin Sumqayıta səfərləri olub. Hər səfər yeni obyektlərin açılışı ilə, daha uğurlu addımların təntənəsi ilə müşayiət olunub.

Ümummilli lider daim inkişafda olan bu sənaye şəhəri barədə deyirdi: "Sumqayıt bütün Azərbaycanın gözəl təcəssümüdür".

Bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də dinamik inkişaf gedir. Ciddi mədəniyyət obyektləri tikilib. Hazırda fəaliyyət göstərdiyimiz Sumqayıt Poeziya Evi Heydər parkında tikilmiş mədəniyyət müəssisələrindən biridir. Heydər Əliyev Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi müasir standartlara cavab verən gözəl arxitektura nümunəsidir. Sumqayıt Dövlət Dram Teatrı, Kimyaçı Mədəniyyət Sarayı tamamilə yenidən qurulub. Biz mədəniyyət işçiləri üçün rahat şərait yaradılıb, müasir texnologiyalardan istifadə edə bilirik.

Poeziya Evi, sumqayıtlı şair və yazıçılara əvəzsiz bir ərməğandır. Əli Kərim adına Poeziya Klubu 1990-cı ildən rəsmi olaraq fəaliyyət göstərir. 6 dəfə yer dəyişib, hamısı da poeziya evinə layiq olmayan yerlər olub. Amma indi nəinki Azərbaycanda, bəlkə də bütün dünyada belə gözəl bir poeziya evi yoxdur. Burada təkcə şəhər deyil, beynəlxalq miqyaslı tədbirlər keçirilir. Xaricdən gələn ədəbiyyatla bağlı qonaqlarımız qapıdan içəri keçəndə heyrətə gəlirlər ki, dünyada bu poeziya evinin analoqu yoxdur.

Əlbəttə, mədəniyyətimizə, ədəbiyyatımıza bu cür qayğı, belə gözəl şəraitin yaradılması hörmətli Prezidentimiz İlham Əliyevin apardığı yaradıcılıq, quruculuq siyasətinin bəhrəsidir. Biz mədəniyyət işçiləri, qələm sahibləri də cavab olaraq həmişə onu dəstəkləyir, üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq...

**Qələmə aldı:**
**Şöhlət ABBAS,**
**"Respublika".**